Təsdiq edirəm
ADMİU-nun rektoru
________Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

7004008 – Menecment ixtisasının
Kino və televiziya menecmenti ixtisaslaşması

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7004008 - Menecment ixtisası** üzrə təhsil proqramı (bundan sonra - təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

**1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:**

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;

- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;

- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrilə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

**2.1.** Təhsil proqramının sonunda məzun aşağıdakı **ümumi səriştələrə** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. Təhsil proqramının sonunda **7004008 - Menecment** ixtisasının **ixtisaslaşmaları** üzrə məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

**2.2.18 Kino və televiziya menecmenti ixtisaslaşması üzrə**

- kino və televiziya layihələrini (planlaşdırma, büdcələşmə, çəkiliş və postproduksiya) idarə etmək;
- kino və televiziya layihələrinə çəkiliş heyəti və aktyor heyəti cəlb etmək;
- kino və televiziya layihələrinin müxtəlif aspektlərinin sənaye standartlarına uyğunluğuna nəzarət etmək;
- kino və televiziya layihələri üçün maliyyə toplanmasını (fundraising) həyata keçirmək;
- kino və televiziya layihələrinin media kanalları vasitəsilə düzgün təşviqi üçün marketinq, PR və kommunikasiya komandaları ilə əməkdaşlıq etmək;
- kino və televiziya layihələrinin çəkilişi zamanı potensial təhlükə və risk məqamlarını öncədən nəzərə almaq və təhlükəsizlik tədbirlərinin icrasına nəzarət etmək;
- kino və televiziya layihələrinin distribyusiyasını birbaşa həyata keçirmək və ya nəzarət etmək;
- film istehsalında yeni texnologiyaların tətbiqi və istifadəsi üzrə mütəxəssisləri cəlb etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Kino və televiziya menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

3.2. Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1.5 il) AKTS kreditindən ibarətdir. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1. | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2. | ***Layihələrin idarə olunması***<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələlər ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar,təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgünqiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 54 |
| 3 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər. | 6 |

| | | |
|---|---|---|
| 4 | **Menecmentin əsasları**<br>Bu fənn idarəetmə elminin nəzəri və praktiki əsaslarını, idarəetmə fəaliyyətinin funksiyalarını, prinsiplərini və metodlarını öyrənməyə yönəlmişdir. Fənnin məqsədi magistr tələbələrinə müasir təşkilatlarda idarəetmənin mahiyyəti, planlaşdırma, təşkil etmə, motivasiya və nəzarət kimi əsas funksiyalar barədə sistemli biliklər vermək, həmçinin onların analitik və qərar qəbuletmə bacarıqlarını formalaşdırmaqdır. Kurs çərçivəsində tələbələr təşkilatların idarə olunması prosesinə strateji yanaşma, resursların səmərəli istifadəsi və liderlik qabiliyyətlərinin inkişafı kimi məsələləri mənimsəyir. Fənn həmçinin menecmentin elmi məktəbləri, idarəetmədə etik və sosial məsuliyyət anlayışları, müasir idarəetmə texnologiyaları və innovativ yanaşmalar haqqında nəzəri və praktiki biliklərin inteqrasiyasını təmin edir. | 6 |
| 5 | **Kino-televiziya tarixi və nəzəriyyəsi**<br>Bu fənn, vizual kommunikasiya vasitələrinin zaman ərzində keçdiyi tarixi inkişaf mərhələlərini və bu proseslərin arxasında dayanan nəzəri konsepsiyaları araşdırır. Fənn çərçivəsində kino və televiziya sənətlərinin yaranması, dünya və yerli kino məktəblərinin formalaşması, janrların inkişafı, texnoloji yeniliklərin audiovizual sənətə təsiri, eləcə də media dilinin təkamülü kimi mövzular öyrənilir.<br>Fənn, tələbələrə vizual mədəniyyətin tarixi köklərini dərinliklə anlamaq, kino və televiziya nümunələrini tənqidi şəkildə təhlil etmək, nəzəri yanaşmaları praktik materiallarla əlaqələndirmək və audiovizual əsərlərin məzmun-üslub xüsusiyyətlərini dərk etmək bacarığı qazandırır. | 6 |
| 6 | **Kino-televiziya sənayesinin standartları və hüquqi normativləri**<br>Bu fənn, kino və televiziya istehsalının hüquqi, etik və normativ çərçivələrini öyrənməyə yönəlmişdir. Fənn tələbələrə audiovizual media məhsullarının istehsalı, yayımı və kommersiya fəaliyyəti zamanı tətbiq olunan beynəlxalq və yerli qanunvericilik normaları haqqında geniş bilik təqdim edir.<br>Dərs çərçivəsində müəlliflik hüquqları, intellektual mülkiyyət, yayım qaydaları, məzmunun hüquqi məhdudiyyətləri, prodüsserlik fəaliyyətində müqavilə hüququ, peşə standartları, etik tələblər, reklam və sponsorluq qaydaları, eləcə də media təşkilatlarının fəaliyyətini tənzimləyən normativ sənədlər təhlil edilir. Tələbələr kino və televiziya sahəsində hüquqi risklərin qiymətləndirilməsi, sənəd və müqavilə işlərinin aparılması, istehsalat prosesində hüquq pozuntularının qarşısının alınması və peşə etikası prinsiplərinin tətbiqi üzrə praktiki bacarıqlar əldə edirlər. Bu fənn media mütəxəssislərinin qanunlara uyğun, məsuliyyətli və peşəkar fəaliyyət göstərməsi üçün zəruri nəzəri və tətbiqi baza formalaşdırır. | 6 |

| | | |
|---|---|---|
| 7 | **Mədəni irsin qorunması və idarə olunması**<br>Bu fənn maddi və qeyri-maddi mədəni irsin tədqiqi, qorunması və davamlı idarə olunması prinsiplərini öyrədir. Fənnin məqsədi mədəni irsin elmi, hüquqi və institusional əsasları, onun milli kimliyin və sosial yaddaşın formalaşmasındakı rolu barədə biliklərin sistemləşdirilməsidir. Kurs çərçivəsində mədəni irsin qorunması siyasəti, idarəetmə modelləri, beynəlxalq konvensiyalar, UNESCO standartları və müasir irs menecmentinin strategiyaları araşdırılır. Fənn həmçinin irs obyektlərinin səmərəli idarə olunması, risklərin azaldılması, turizm və cəmiyyətlə əlaqə aspektlərini nəzərdən keçirir. | 6 |
| 8 | **Müasir rəqəmsal texnologiyalar (incəsənət sahələri üzrə)**<br>Bu fənn incəsənət istiqamətlərində rəqəmsal texnologiyaların tətbiqi, innovativ yaradıcılıq formaları və rəqəmsal transformasiyanın incəsənətə təsir mexanizmlərini öyrədir. Fənnin məqsədi rəqəmsal mühitdə bədii ifadə vasitələrinin, yeni media texnologiyalarının, 3D modelləşdirmə, rəqəmsal qrafika, virtual və artırılmış reallıq kimi texnologiyaların incəsənət proseslərində istifadəsi ilə bağlı nəzəri və praktik biliklərin formalaşdırılmasıdır. Kurs çərçivəsində rəqəmsal estetika, multimedia layihələrinin hazırlanması, rəqəmsal sənətin sosial və mədəni təsirləri, həmçinin müasir texnoloji trendlərin yaradıcılıq prosesinə inteqrasiyası araşdırılır. | 6 |
| 9 | **Art marketinq və PR**<br>Bu fənn incəsənət sahəsində marketinq və ictimaiyyətlə əlaqələr fəaliyyətinin nəzəri və praktik əsaslarını öyrədir. Fənnin məqsədi incəsənət məhsullarının bazarda təşviqi, mədəni layihələrin ictimai imicinin formalaşdırılması və auditoriya ilə effektiv kommunikasiya strategiyalarının qurulması istiqamətində bilik və bacarıqların inkişaf etdirilməsidir. Kurs çərçivəsində incəsənət menecmenti, art brendinq, sponsorluq, reklam, media əlaqələri, rəqəmsal PR və sosial media strategiyaları kimi mövzular araşdırılır. Fənn həmçinin yerli və beynəlxalq art bazarının xüsusiyyətləri, yaradıcı sənayelərdə marketinqin rolu və mədəni məhsulun dəyər formalaşdırma mexanizmlərini təhlil etməyə yönəlir. | 6 |
| 10 | **Kino-televiziya layihələrinin distribusiyası və yayımı**<br>Bu fənn audiovizual məhsulların istehsaldan sonra bazara çıxarılması, müxtəlif platformalar üzrə yayımı və satış mexanizmlərini öyrədir. Tələbələr ənənəvi və rəqəmsal distribusiya kanallarını, festival və beynəlxalq satış proseslərini, lisenziyalaşdırma və müəllif hüquqları prinsiplərini mənimsəyirlər. Fənn müasir media mühitində effektiv yayım strategiyası hazırlamaq üçün tələbələrə praktik və analitik bacarıqlar formalaşdırır. | 6 |

| | | |
|---|---|---|
| 11 | **Liderlik və strateji idarəetmə**<br>Bu fənn təşkilatların idarə olunmasında liderliyin rolu, strateji düşüncə tərzi və qərar qəbuletmə proseslərinin elmi əsaslarını öyrədir. Fənnin məqsədi müasir idarəetmə mühitində liderlik üslublarını, strateji planlaşdırma və dəyişikliklərin idarə olunması metodlarını mənimsətməkdir. Kurs çərçivəsində liderlik nəzəriyyələri, menecment və liderlik arasındakı əlaqə, strateji idarəetmənin mərhələləri, rəqabət üstünlüyünün formalaşması və təşkilati mədəniyyətin inkişafı kimi məsələlər təhlil olunur. Fənn tələbəyə təşkilatın uzunmüddətli məqsədlərinə çatmaq üçün liderlik və strateji yanaşma bacarıqlarının inteqrasiyasını öyrədir. | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 12 | **a) Audiovizual sənətdə müasir trendlər**<br>Bu fənn, tələbələrə vizual media sahəsində baş verən müasir inkişaflar və yenilikləri dərindən öyrənmək imkanı yaradır. Fənn çərçivəsində kino, televiziya, animasiya, video sənəti və rəqəmsal media sahələrində aktuallıq qazanan texnoloji və estetik trendlər araşdırılır. Tədris zamanı rəqəmsal texnologiyalar, süni intellekt, virtual və artırılmış reallıq, interaktiv media, qlobal və yerli sənət tendensiyaları, innovativ vizual üslub və narrativ eksperimentlər öyrənilir. Tələbələr bu trendlərin audiovizual ifadə vasitələrinə və yaradıcı prosesə təsirini qiymətləndirməyi, yeni ideyalar və yanaşmalar tətbiq etməyi bacarırlar.<br>Fənn, tələbələrə müasir audiovizual məhsulları tənqidi analiz etmə, yenilikləri layihələrinə inteqrasiya etmə və sənayedə aktual trendləri izləmə qabiliyyəti qazandırır.<br><br>**b) Kadr və aktyor heyətinin seçimi və idarə olunması**<br>Bu fənn kino və televiziya layihələrində yaradıcı və texniki heyətin seçilməsi, kastinq prosesinin təşkili, aktyorlarla iş prinsipləri və qrup idarəçiliyinin əsaslarını öyrədir. Fənn tələbələrə komanda formalaşdırılması, əmək bölgüsü, motivasiya, iş prosesinin koordinasiyası və peşəkar ünsiyyət bacarıqlarını mənimsədir. | 6 |
| 13 | **a) Yaradıcı sənayelər (Creative Industries)**<br>Bu fənn mədəniyyət və iqtisadiyyatın kəsişməsində formalaşan yaradıcılıq əsaslı fəaliyyət sahələrinin nəzəri və praktik əsaslarını öyrədir. Fənnin məqsədi yaradıcı sənayelərin mahiyyətini, strukturunu, iqtisadi və sosial rolunu, həmçinin innovativ və rəqəmsal mühitdə inkişaf meyillərini elmi əsaslarla izah etməkdir. Kurs çərçivəsində mədəni və yaradıcı iqtisadiyyat anlayışları, yaradıcılıq klasterləri, intellektual mülkiyyətin qorunması, rəqəmsal istehsal və paylama modelləri, həmçinin dövlət siyasətinin və beynəlxalq təşkilatların bu sahədə rolu təhlil olunur. Fənn tələbəyə | 6 |

| | | |
|---|---|---|
| | mədəniyyət və incəsənət sahəsində yaradıcı layihələrin idarə olunması və davamlı inkişaf strategiyalarını müəyyənləşdirməyə imkan yaradır.<br><br>**b) Kino-televiziya layihələrinin maliyyələşdirilməsi və fandrayzinq**<br>Bu fənn kino və TV layihələri üçün büdcənin hazırlanması, maliyyə mənbələrinin müəyyənləşdirilməsi, investisiya cəlbi, qrantlar, sponsorluq və fandrayzinq strategiyalarının qurulması ilə bağlı əsas bilik və bacarıqları öyrədir. Tələbələr audiovizual sənayedə maliyyə idarəçiliyi, risklərin qiymətləndirilməsi və potensial tərəfdaşlarla iş prinsiplərini mənimsəyirlər. | |
| 14 | **a) Kino-televiziya sənayesində beynəlxalq təcrübə**<br>Bu fənn dünya kino və televiziya sənayesinin inkişaf modellərini, aparıcı ölkələrin istehsal, distribusiya və yayım təcrübələrini, qlobal media bazarlarının fəaliyyət prinsiplərini öyrədir. Tələbələr beynəlxalq standartlar, sənaye strukturları, film bazarları, koproduksiya mexanizmləri və uğurlu ölkə nümunələri ilə tanış olur. Fənn tələbələrə qlobal mediada inteqrasiya və rəqabət mühitini anlamaq üçün analitik biliklər qazandırır.<br><br>**b) Festival və media təbirlərində iştirakın idarə olunması**<br>Bu fənn kino, televiziya və media layihələrinin yerli və beynəlxalq festivallarda, bazarlarda və sənaye tədbirlərində peşəkar şəkildə təqdim olunması və idarə edilməsini öyrədir. Fənn iştirak strategiyasının hazırlanması, təqdimat materiallarının formalaşdırılması, layihələrin seçmə prosesinə hazırlanması və tədbir zamanı komanda koordinasiyasının təşkili kimi əsas bacarıqları inkişaf etdirir. | 6 |
| | **Təcrübə** | |
| 15 | Elmi-pedaqoji təcrübə | 6 |
| CƏMİ | | 90 |

### 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

**6.1. 7004008 - Menecment** proqramı üzrə məzunlar dövlət və özəl sektorda aşağıdakı peşələrdə işləyə biləcəklər:

**Kino və televiziya menecmenti ixtisaslaşması üzrə**

- Kino/televiziya prodüseri;
- Xətt prodüseri;
- Yayım və kontent planlanma eksperti;
- Film festivalları və mədəni tədbirlərin təşkilatçısı;
- Distribusiya meneceri;
- Media idarəetmə üzrə məsləhətçi və s.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

**Kino və televiziya menecmenti ixtisaslaşması üzrə**

| **Proqramın təlim nəticələri (PTN)** |
|---|
| 1. Kino və televiziya layihələrini idarə edəcək. |
| 2. Layihələrə çəkiliş heyəti və aktyor heyəti cəlb edə biləcək. |
| 3. Kino və televiziya layihələrində sənaye standartlarına uyğunluğa nəzarət edəcək. |
| 4. Kino və televiziya layihələri üçün maliyyə mənbələri tapa biləcək. |
| 5. PR və kommunikasiya komandaları ilə əməkdaşlıq edəcək. |
| 6. Çəkilişlə bağlı təhlükəsizliyi təmin edə biləcək. |
| 7. Kino və televiziya layihələrinin distribyusiyasını həyata keçirəcək. |
| 8. Film istehsalında yeni texnologiyaları tətbiq edəcək. |

| **Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| **Layihələrin idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət |

| |
|---|
| vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| "Menecmentin əsasları" fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN1.** Menecment elminin mahiyyəti, funksiyaları, prinsipləri və inkişaf mərhələləri haqqında elmi biliklərə yiyələnəcək. |
| **FTN2.** Müxtəlif idarəetmə modellərini və nəzəriyyələrini təhlil edib, onları konkret təşkilatların idarəetmə praktikasına tətbiq etməyi bacaracaq. |
| **FTN3.** Planlaşdırma, təşkil etmə, motivasiya və nəzarət funksiyalarının qarşılıqlı əlaqəsini müəyyənləşdirəcək və bu bilikləri qərar qəbuletmə proseslərində istifadə edəcək. |
| **FTN4.** İdarəetmə prosesində insan amilinin rolunu, liderlik üslublarını və komanda idarəçiliyinin əsaslarını mənimsəyəcək. |
| **FTN5.** Menecmentdə etik davranış və sosial məsuliyyət prinsiplərini analiz edib və onları təşkilatların idarəetmə siyasətinə tətbiq edə biləcək. |
| **FTN6.** Müasir idarəetmə metodlarını, informasiya texnologiyalarının idarəetmədə rolunu və innovativ yanaşmaları qiymətləndirəcək və praktiki qərarlarda tətbiq edəcək. |

| "Kino və televiziya tarixi və nəzəriyyəsi" fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN1.** Kino və televiziya sahəsinin tarixi inkişaf xronologiyasını, mühüm dövrləri, estetika və nəzəri məktəbləri fərqləndirəcək və onların media sənətinin formalaşmasına təsirini izah edəcək. |
| **FTN2.** Vizual media nümunələrində istifadə olunan ifadə vasitələrini, narrativ strukturları və üslubi xüsusiyyətləri nəzəri yanaşmalar əsasında analiz edəcək. |
| **FTN3.** Kino və televiziya ilə bağlı tarixi materialları, nəzəri mənbələri və ekran əsərlərini müqayisəli şəkildə araşdıracaq və əsaslandırılmış nəticələr çıxaracaq. |
| **FTN4.** Media məhsullarını estetik, ideoloji və sosial kontekstlərdə tənqidi qiymətləndirib, müxtəlif kino məktəblərinin metod və yanaşmalarını dəyərli şəkildə şərh edə biləcək |
| **FTN5.** Kino və televiziya mövzularını peşəkar dildə şərh edib, fikir və nəticələrini akademik yazı, müzakirə və təqdimat formalarında səlis şəkildə ifadə edəcək. |
| **FTN6.** Kino və televiziya məhsullarının cəmiyyətin mədəni, sosial və ideoloji strukturlarına necə təsir etdiyini qiymətləndirəcək və vizual medianın ictimai funksiyalarını geniş kontekstdə |

| |
|---|
| şərh edəcək. |

| "Kino və televiziya sənayesinin standartları və hüquqi normativləri" fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN1.** Kino və televiziya istehsalında tətbiq olunan beynəlxalq və yerli qanunvericilik, müəlliflik hüquqları və intellektual mülkiyyət prinsiplərini mənimsəyəcəklər. |
| **FTN2.** Media layihələrinin hazırlanmasında müqavilələrin tərtibi, hüquqi sənədlərin hazırlanması və hüquqi risklərin qiymətləndirilməsi üzrə praktiki bacarıqlar əldə edəcəklər. |
| **FTN3.** Kino və televiziya istehsalında etik prinsipləri, peşə standartlarını tətbiq etməyi və məsuliyyətli qərarlar verməyi öyrənəcəklər. |
| **FTN4.** Yayım qaydaları, məzmun məhdudiyyətləri, reklam və sponsorluq normativlərini təhlil edə və istehsal prosesində tətbiq edə biləcəklər. |
| **FTN5.** Tələbələr istehsal zamanı hüquqi pozuntuların qarşısını almaq, riskləri idarə etmək və layihələrin qanunlara uyğunluğunu tənqidi şəkildə qiymətləndirmək bacarığına yiyələnəcəklər. |
| **FTN6.** Tələbələr kino və televiziya istehsalında hüquqi və normativ tələbləri texnoloji proseslərlə əlaqələndirərək tətbiq edə biləcəklər, hüquqi çərçivələrə uyğun olaraq istehsal planlaması, icrası və yayımla bağlı texniki və əməliyyat qərarlarını idarə etmək bacarığı qazanacaqlar. |

| "Mədəni irsin qorunması və idarə olunması" fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN1.** Mədəni irsin anlayışı, növləri və qorunmasının elmi-nəzəri əsasları barədə sistemli biliklərə yiyələnəcək. |
| **FTN2.** Mədəni irsin idarə olunması ilə bağlı milli və beynəlxalq hüquqi çərçivələri təhlil edəcək və onların tətbiq mexanizmini müəyyənləşdirəcək. |
| **FTN3.** Mədəni irs obyektlərinin mühafizəsi, bərpası və davamlı istifadəsi istiqamətində tətbiq olunan idarəetmə modellərini qiymətləndirəcək. |
| **FTN4.** Mədəni irsin qorunmasında dövlət, qeyri-hökumət və ictimai institutların rolunu və qarşılıqlı əlaqəsini analiz edəcək. |
| **FTN5.** Beynəlxalq təşkilatların (xüsusilə UNESCO-nun) mədəni irsin qorunması sahəsində siyasət və standartlarını dəyərləndirəcək. |
| **FTN6.** Mədəni irs idarəçiliyində müasir texnologiyaların, rəqəmsallaşdırmanın və cəmiyyətlə kommunikasiya vasitələrinin tətbiq imkanlarını müəyyənləşdirəcək. |

| "Müasir rəqəmsal texnologiyalar (incəsənət sahələri üzrə)" fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN1.** Rəqəmsal texnologiyaların incəsənət sahələrində inkişaf meyillərini və onların yaradıcılıq proseslərinə təsirini təhlil edəcək. |
| **FTN2.** Rəqəmsal mühitdə bədii ifadə formalarının xüsusiyyətlərini və yeni media texnologiyalarının tətbiq imkanlarını müəyyənləşdirəcək. |
| **FTN3.** Virtual və artırılmış reallıq, 3D modelləşdirmə, rəqəmsal qrafika kimi texnologiyalardan yaradıcılıq fəaliyyətində istifadə etmə bacarığını nümayiş etdirəcək. |
| **FTN4.** Rəqəmsal sənət nümunələrinin estetik və texnoloji aspektlərini dəyərləndirəcək və onların sənət sistemində yerini müəyyənləşdirəcək. |

| |
|---|
| **FTN5.** Müasir texnologiyaların incəsənətin istehsalı, təqdimatı və yayımı proseslərində oynadığı rolu analiz edəcək. |
| **FTN6.** Rəqəmsal yaradıcılıq fəaliyyətində etik, hüquqi və müəlliflik hüququ məsələlərini nəzərə alacaq və praktik tətbiqlərdə rəhbər tutacaq. |

| **"Art marketinq və PR" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Art marketinqin və PR fəaliyyətinin elmi-nəzəri əsaslarını, məqsəd və funksiyalarını müəyyənləşdirəcək. |
| **FTN2.** İncəsənət bazarının strukturunu, onun fəaliyyət prinsiplərini və iştirakçılarını təhlil edəcək. |
| **FTN3.** Mədəni və bədii məhsulların bazar dəyərinin formalaşma mexanizmlərini və istehlakçı davranışlarını qiymətləndirəcək. |
| **FTN4.** Art layihələrinin və mədəni tədbirlərin PR strategiyalarını hazırlayıb, ictimaiyyətlə effektiv kommunikasiya qurma bacarığını nümayiş etdirəcək. |
| **FTN5.** Rəqəmsal media və sosial platformalarda art marketinq və PR alətlərindən məqsədyönlü şəkildə istifadə edəcək. |
| **FTN6.** İncəsənət sahəsində etik prinsiplərə əsaslanan marketinq və kommunikasiya strategiyalarını formalaşdırır və tətbiq edəcək. |

| **"Kino və televiziya layihələrinin distribusiyası və yayımı" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Tələbə ənənəvi kinoteatr distribusiyası, televiziya yayımı, rəqəmsal platformalar hibrid yayım modelləri və onların üstünlüklərini izah edə biləcək. |
| **FTN2.** Tələbə konkret məhsulun hədəf auditoriyasını müəyyənləşdirərək optimal distribusiya marşrutu, platforma seçimi və yayım qrafiki üzrə strateji plan tərtib edə biləcək. |
| **FTN3.** Tələbə beynəlxalq film bazarlarında satış, müqavilə növləri, lisenziyalaşdırma hüquqları və regionlar üzrə yayım şərtlərini təhlil edib praktik şəkildə tətbiq edə biləcək. |
| **FTN4.** Tələbə rəqəmsal platformaların alqoritmləri, kontent yerləşdirmə prinsipləri, sosial media vasitəsilə təşviqat və onlayn paylama strategiyalarını qiymətləndirə biləcək. |
| **FTN5.** Tələbə layihənin festival strategiyasını planlaşdırır, seçmə kriteriyalarını analiz edəcək və festival sonrası distribusiya imkanlarını müəyyənləşdirəcək. |
| **FTN6.** Tələbə yayım və distribusiya prosesində müəllif hüquqları, kontrakt tələbləri, yayım lisenziyaları və kontent qorunması ilə bağlı hüquqi normaları praktiki vəziyyətlərə uyğun tətbiq edə biləcək. |

| **"Liderlik və strateji idarəetmə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Liderlik və strateji idarəetmənin mahiyyətini, nəzəri əsaslarını və qarşılıqlı əlaqəsini elmi baxımdan dərk edəcək. |
| **FTN2.** Müxtəlif liderlik modellərini və üslublarını təhlil edib, onların təşkilat idarəçiliyində tətbiq imkanlarını müəyyənləşdirəcək. |
| **FTN3.** Strateji planlaşdırma proseslərini və qərar qəbuletmə mexanizmlərini sistemli şəkildə qiymətləndirəcək. |
| **FTN4.** Liderlik və strateji idarəetmə vasitəsilə təşkilati dəyişikliklərin idarə olunması və |

| |
|---|
| komanda fəaliyyətinin səmərəliliyini təmin edəcək. |
| **FTN5.** Təşkilati mədəniyyətin formalaşmasında liderliyin və strateji yanaşmanın rolunu analiz edəcək. |
| **FTN6.** Müasir idarəetmə mühitində etik liderlik, innovativ düşüncə və strateji adaptasiya prinsiplərini tətbiq edəcək. |

| **"Audiovizual sənətdə müasir trendlər" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Kino, televiziya və rəqəmsal media sahəsində formalaşan yeni tendensiyaları araşdırıb, onların sənət və sənaye üçün yaratdığı dəyişiklikləri izah edəcək. |
| **FTN2.** Müxtəlif ölkələrin və mədəniyyətlərin çağdaş media məhsullarını müqayisə edib, trendlərin mədəni təsir gücünü qiymətləndirəcək. |
| **FTN3.** Sosial media, streaminq servisləri, qısa video formatları kimi müasir yayım kanallarının sənət və auditoriya davranışlarına təsirini təhlil edəcək. |
| **FTN4.** Süni intellekt, VR/AR, interaktiv platformalar və digər rəqəmsal alətlərin yaradıcılıq prosesində oynadığı rolu qiymətləndirəcək. |
| **FTN5.** Yeni texnologiya və trendlərə əsaslanan yaradıcı ideyalar irəli sürəcək və onları layihələndirmə bacarığı nümayiş etdirəcək. |
| **FTN6.** Trend analizi, bazar tələbləri və texnoloji istiqamətləri nəzərə alaraq yaradıcı layihələrin inkişafı üçün strateji planlar hazırlayacaq. |

| **"Kadr və aktyor heyətinin seçimi və idarə olunması" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Tələbə yaradıcı və texniki komandanın funksiyalarını və məsuliyyət bölgüsünü izah edəcək. |
| **FTN2.** Tələbə kastinq meyarları, sınaq çəkilişi və seçim mərhələsini təşkil edə biləcək. |
| **FTN3.** Tələbə layihənin tələblərinə uyğun optimal heyət seçimi və əmək bölgüsü planı hazırlayacaq. |
| **FTN4.** Tələbə yaradıcılıq prosesində ünsiyyət, motivasiya və geri bildirim metodlarını tətbiq edəcək. |
| **FTN5.** Tələbə çəkiliş qrafiki, vəzifə icrası və iş axınının koordinasiyasını həyata keçirə biləcək. |
| **FTN6.** Tələbə müqavilə prinsipləri, əmək münasibətləri və peşə etikası ilə bağlı qaydaları tətbiq edəcək. |

| **"Yaradıcı sənayelər (Creative Industries)" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Yaradıcı sənayelərin anlayışını, əsas istiqamətlərini və iqtisadi-mədəni əhəmiyyətini elmi baxımdan dərk edəcək. |
| **FTN2.** Yaradıcı iqtisadiyyatın strukturunu, fəaliyyət mexanizmlərini və onun sosial təsirini təhlil edəcək. |
| **FTN3.** Mədəni və yaradıcılıq yönümlü biznes modellərini, innovativ idarəetmə üsullarını və istehsal strategiyalarını qiymətləndirəcək. |
| **FTN4.** Rəqəmsal texnologiyaların və platformaların yaradıcı sənayelərin inkişafındakı rolunu və tətbiq imkanlarını müəyyənləşdirəcək. |

| | |
|---|---|
| **FTN5.** Yaradıcı sənayelərdə intellektual mülkiyyətin qorunması, etik normalar və davamlı inkişaf prinsiplərini rəhbər tutacaq. |
| **FTN6.** Dövlət siyasətinin, beynəlxalq təşkilatların və regional proqramların yaradıcı sənayelərin inkişafına təsirini analiz edəcək. |

| **"Kino və televiziya layihələrinin maliyyələşdirilməsi və fandrayzinq" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Tələbə layihənin istehsal, postproduksiya və yayım xərclərini hesablayaraq büdcə modeli tərtib edə biləcək. |
| **FTN2.** Tələbə dövlət dəstəyi, özəl investisiya, qrantlar, koproduksiya imkanları və kommersiya tərəfdaşlıqları üzrə maliyyə mənbələrini təhlil edəcək. |
| **FTN3.** Tələbə layihə üçün sponsor, donor və investorların cəlbi məqsədilə effektiv təqdimat və kommunikasiya planı hazırlaya biləcək. |
| **FTN4.** Tələbə layihənin maliyyə davamlılığını təhlil edib, riskləri müəyyənləşdirir və idarəetmə üsullarını tətbiq edəcək. |
| **FTN5.** Tələbə büdcə hesabatları, müqavilələr və maliyyə planlaşdırması üzrə tələbləri tətbiq edəcək. |
| **FTN6.** Tələbə danışıqlar aparmaq, layihə təqdimatı hazırlamaq və tərəfdaşlıq münasibətlərini effektiv idarə etmək bacarığı əldə edəcək. |

| **"Kino və televiziya sənayesində beynəlxalq təcrübə" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Tələbə qlobal media bazarlarının quruluşu, istehsal və yayım modellərini xarakterizə edə biləcək. |
| **FTN2.** Tələbə müxtəlif regionların inkişaf strategiyalarını və istehsal sistemlərini təhlil edəcək. |
| **FTN3.** Tələbə beynəlxalq layihələr üçün tərəfdaşlıq modellərini və əməkdaşlıq prosedurlarını müəyyənləşdirə biləcək. |
| **FTN4.** Tələbə Kann, Berlin, Sundance kimi nüfuzlu platformaların sənaye inkişafına təsirini analiz edəcək. |
| **FTN5.** Tələbə beynəlxalq satış, rəqəmsal platformalar və transregional yayım modellərini qiymətləndirəcək. |
| **FTN6.** Tələbə layihələrin qlobal tələblərə əsasən planlaşdırılması və idarə olunması üzrə bacarıqlar əldə edəcək. |

| **"Festival və media tədbirlərində iştirakın idarə olunması" fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN1.** Tələbə kino və media festivallarının məqsədini, formatlarını və sənaye üçün rolunu izah edəcək. |
| **FTN2.** Tələbə layihənin janrına, məqsədinə və auditoriyasına uyğun festival xəritəsi hazırlaya biləcək. |
| **FTN3.** Tələbə müraciət şərtləri, vaxt cədvəli və təqdimat materialları əsasında effektiv iştirak planı tərtib edəcək. |
| **FTN4.** Tələbə press-kit, sinopsis, treyler, poster və təqdimat paketinin hazırlanmasını tətbiq edə biləcək. |

| |
|---|
| **FTN5.** Tələbə nümayəndə heyətinin koordinasiyası, görüşlərin təşkili və media ilə ünsiyyət prinsiplərini tətbiq edəcək. |
| **FTN6.** Tələbə iştirak nəticələrini, əldə olunan əlaqələri və gələcək addımları qiymətləndirərək hesabat hazırlaya biləcək. |

| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 – Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 |
| Akademik yazı və etika | | | x | | | | X | X |
| Layihələrin idarə olunması | | | | | | | X | X |
| Ali məktəb pedaqogikası və psixologiya | | | X | | | X | | X |
| Menecmentin əsasları | X | | | | | | | |
| Kino-televiziya tarixi və nəzəriyyəsi | X | | | | | | | |
| Kino-televiziya sənayesinin standartları və hüquqi normativləri | | X | X | X | | X | | |
| Müasir rəqəmsal texnologiyalar (incəsənət sahələri üzrə) | | | | | X | X | | X |
| Mədəni irsin qorunması və idarə olunması | | X | | X | | | | |
| Art marketinq və PR | | | X | | X | | | X |
| Kino-televiziya layihələrinin distribusiyası və yayımı | | | | | | X | X | |
| Liderlik və strateji idarəetmə | | | X | | | X | | X |
| Audivizual sənətdə müasir trendlər | X | | | | | | | X |
| Kadr və aktyor heyətinin seçimi və idarə olunması | | X | | | X | | | |
| Yaradıcı sənayelər (Creative Industries) | | | | | X | | | |
| Kino və televiziya layihələrinin maliyyələşdirilməsi və fandrayzinq | X | X | | X | X | | | |
| Kino və televiziya sənayesində beynəlxalq təcrübə | | | | X | | | | X |
| Festival və media tədbirlərində iştirakın idarə olunması | | X | | | X | | | |
| Elmi-pedaqoji təcrübə | | | | | X | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________________ **Namiq Qafarov**

**ADMİU-nun Muzeyşünaslıq və turizm kafedrasının müdiri:** ____________________ **Yeganə Eyvazova**

**ADMİU-nun Kulturologiya fakültəsinin dekanı:** ____________________ **Səyavuş Məhişov**